# Baramaçılığın inkişafına dair regional seminar

Qəbələ Rayonun Dövlət Aqrar İnkişaf Mərkəzində "İpəkqurdunun bəslənilməsinin düzgün təşkili və məhsuldarlığın artırılması istiqamətində tədbirlərin həyata keçirilməsi" mövzusunda regional seminar keçirilib.



Seminarda Kənd Təsərrüfatı Nazirliyi bitkiçiliyin təşkili və manitorinqi şöbəsinin, Dövlət Fitosanitar Xidmətinin, Heyvandarlıq Elmi Tədqiqat İnstitutunun, Şəki İpək ASC-nin, Qəbələ, Ağdaş, İsmayıllı, Oğuz rayon icra hakimiyyətlərinin məsul şəxsləri, aqrar inkişaf mərkəzlərinin əməkdaşları və barama istehsalçıları iştirak ediblər.

Müşavirəni açan mərkəzin direktoru Rahib Əhmədov ölkədə baramaçılığın inkişafı istiqamətində görülən işlər, qəbul edilən dövlət proqramları barədə məlumat verib, dövlətin bu sahənin inkafına göstərdiyi diqqət və qayğıdan bəhs edib. Barama istehsalının ildən-ilə artdığını, ipəkçiliyin inkişaf etdirilməsi ilə bağlı yerlərdə böyük potensial yarandığını diqqətə çatdırıb.

Tədbirdə çıxış edən rəsmi qurumların nümayəndələri respublikamızda müasir ipəkçilik infrastrukturunun yaradılması istiqamətində həyata keçirilən tədbirlər barədə məlumat veriblər.

Bildirilib ki, hazırda bölgədə yeni məhsuldar ipəkqurdu cinsləri və hibridlərinin yaradılması, ilkin toxumçuluğun təşkili istiqamətində elmi tədqiqat işlərinin genişləndirilməsi, toxumçuluq zavodlarının, baramanın ilkin emalı üçün qurutma məntəqələrinin yaradılması istiqamətində tədbirlər görülür.

Natiqlər çıxışlarında baramaçılığın əhalinin məşğulluğunun təmin edilməsinə və sosial rifahının daha da yaxşılaşdırılmasına verdiyi töhvələrdən söz açıblar.

Müşavirədə mövzu ətrafında fikir mübadiləsi aparılıb, barama isehsalçılarını maraqlandıran suallar mütəxəssislər tərəfindən cavablandırılıb.

**"Qəbələ"**

# "Xəmsə" milli intellektual oyunu

Qəbələ Rayon Gənclər və İdman İdarəsi tərəfindən "Azərbaycan gəncliyi 2017-2021-ci illərdə" Dövlət Proqramının müvafiq bəndlərinin icrası ilə əlaqədar 4 aprel 2019-cu il tarixdə Qəbələ şəhər 1 nömrəli tam orta məktəbdə gənclərin daha geniş kütləsinin intellektual fəaliyyətə cəlb edilməsi, asudə vaxtlarının səmərəli təşkil olunması məqsədilə gənclər arasında "Xəmsə" milli intellektual oyunu üzrə XI Azərbaycan Çempionatının rayon seçim mərhələsi keçirilmişdir.



Tədbirin açılış mərasimində rayon gənclər və idman idarəsinin rəisi Fəxri Soltanov çıxış edərək Prezident İlham Əliyevin rəhbərliyilə respublikada həyata keçirilən dövlət gənclər siyasətinin uğurlarından danışmış, tədbirin məqsəd və vəzifələri haqqında məlumat vermişdir. Sonra yarış start götürmüşdür.

Rayon mərhələsində yaşı 29-dək olan 16 komandadan ibarət gənclər öz bilik-bacarıqlarını və intellektual səviyyələrini sınamışlar. Yarışın yekununda Vəndam qəsəbə 2 nömrəli tam orta məktəbin komandası I yerə, Qəbələ şəhər 4 nömrəli tam orta məktəbin komandası II yerə və Bum qəsəbə tam orta məktəbin komandası III yerə çıxmışdır. Hər üç komanda "Xəmsə" milli intellektual oyunu üzrə XI Azərbaycan çempionatının Şəki şəhərində keçiriləcək zona mərhələsinə vəsiqə qazanmışlar.

Qalib komandalara rayon gənclər və idman idarəsinin diplomları təqdim edilmişdir.

**Mübariz AĞAYEV,**
**gənclər və idman idarəsinin aparıcı məsləhətçisi.**

# Şahmat festivalı keçirilmişdir

Qəbələ Rayon Təhsil Şöbəsi uşaq-gənclər idman-şahmat məktəbi ilə birlikdə Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin anadan olmasının 96-cı ildönümünə həsr olunmuş şahmat festivalı keçirmişlər. Festivalda "Şahmat" fənni tədris olunan ümumtəhsil məktəblərinin II, III və IV sinif şagirdləri iştirak etmişlər.

Festivalın açılışında rayon uşaq-gənclər idman-şahmat məktəbinin direktoru Ədalət Əliyev iştirakçılara Heydər Əliyevin həyatı və siyasi fəaliyyəti barədə məlumat vermiş, şahmatçılara uğurlar diləmişdir.

Yarışlar şahmat üzrə beynəlxalq dərəcəli idman ustası Araz Alməmmədovun rəhbərliyi ilə davam etmişdir.

**Oğlanlar arasında** II sinif üzrə I yeri şəhər 2 nömrəli tam orta məktəbin şagirdi Sunay Şirinov, II yeri Zarağan kənd 2 nömrəli tam orta məktəbin şagirdi Murad İsayev, III yeri Vəndam qəsəbə 1 nömrəli tam orta məktəbin şagirdi Ömər İsmayılzadə, **qızlar arasında** I yeri Tüntül kənd tam orta məktəbin şagirdi Mədinə Eyyubova, II yeri şəhər 4 nömrəli tam orta məktəbin şagirdi Lalə Səbzəliyeva, III yeri Kiçik Pirəli kənd tam orta məktəbin şagirdi Nuray İbadullayeva tutmuşdur.

**Oğlanlar arasında** III sinif üzrə I yeri Vəndam qəsəbə 1 nömrəli tam orta məktəbin şagirdi Toğrul Bağırov, II yeri şəhər 1 nömrəli tam orta məktəbin şagirdi Tağı Tağıyev, III yeri Vəndam qəsəbə1 nömrəli tam orta məktəbin şagirdi Yusif Eyyublu, **qızlar arasında** I yeri Nohurqışlaq kənd tam orta məktəbin şagirdi Aysun Əzizli, II yeri şəhər 1 nömrəli tam orta məktəbin şagirdi Zəhra Balıyeva, III yeri Vəndam qəsəbə 1 nömrəli tam orta məktəbin şagirdi Nuray Süleymanova tutmuşdur.

**Oğlanlar arasında** IV sinif üzrə I yeri şəhər 4 nömrəli tam orta məktəbin şagirdi İsgəndər İsgəndərli, II yeri şəhər 2 nömrəli tam orta məktəbin şagirdi Elyar Şirinov, III yeri şəhər 1 nömrəli tam orta məktəbin şagirdi Uğur Nəbiyev, **qızlar arasında** I yeri Tüntül kənd tam orta məktəbin şagirdi Selcan Eyyubova, II yeri şəhər 4 nömrəli tam orta məktəbin şagirdi Fidan Cabbarova, III yeri şəhər 1 nömrəli tam orta məktəbin şagirdi Fatimə Məmmədli tutmuşdur.

Komandalar arasında I yeri şəhər 4 nömrəli tam orta məktəbi, II yeri Vəndam qəsəbə 1 nömrəli tam orta məktəbi, III yeri şəhər 1 nömrəli tam orta məktəbi, IV yeri Tüntül kənd tam orta məktəbi tutmuşdur.

Qaliblər rayon uşaq-gənclər idman-şahmat məktəbinin diplomları ilə təltif olunmuş, Oğuz şəhərində keçiriləcək zona yarışlarında iştirak etmişlər.

**Nərmin RİZVANOVA,**
**rayon UGİŞM-nin direktor müavini.**

# Əhalinin kütləvi tibbi müayinəsi davam edir

Prezident İlham Əliyevin tapşırığına əsasən respublikamızın bütün bölgələrində, o cümlədən Qəbələdə əhalinin kütləvi tibbi müayinəsi davam edir və artıq rayonun 20 yaşayış məntəqəsində bu humanist aksiya başa çatıb.



Rayon mərkəzi xəstəxanasından mübxbirimizə bildirilib ki, indiyədək 18 yaşdan yuxarı 30785 nəfər sakin tibbi müayinədən keçib. Müayinə edilənlərin 1733 nəfəri ambulator, 207 nəfəri stasionar müalicəyə cəlb olunub, 67 nəfərin üzərində cərrahiyyə əməliyyatı aparılıb, 96 nəfər isə ixtisaslaşmış tibb müəssisələrinə göndərilib.

Qeyd edək ki, bu humanist aksiya xüsusi komissiyanın nəzarəti altında, tərtib olunan qrafik əsasında aparılır. Əlil və ahıl insanların dispanserizasiyası səyyar həkim briqadası tərəfindən evlərdə həyata keçirilir.

**"Qəbələ"**

# Rayonumuzda 6 yeni artezian quyusu qazılacaq

Azərbaycan Prezidentinin "Əkin sahələrinin suvarma suyu ilə təminatının yaxşılaşdırılması və əhalinin içməli suya olan tələbatının ödənilməsinə dair əlavə tədbirlər haqqında" 2019-cu il 12 fevral tarixli Sərəncamının icrası olaraq, bu il Qəbələ rayonunun Nic qəsəbəsində və Yeni Dizaxlı, Zirik, Kürd, Bılıx, Həmzəli kəndlərində 6 yeni artezian quyusunun qazılması nəzərdə tutulub. Artıq 4 quyuda qazma işlərinə başlanılıb.

Torpaqların suvarılması təminatının yaxşılaşdırılması və əhalinin içməli suya olan tələbatının ödənilməsi məqsədilə son illərdə rayonda xeyli subartezian və artezian quyusu qazılaraq əhalinin istifadəsinə verilib. Təkcə 2018-ci ildə yaşayış məntəqələrində 9 artezian quyusu qazılıb. Bu quyuların istismara verilməsi nəticəsində rayon sakinlərinin suvarma suyu ilə təminatı daha da yaxşılaşdırılıb.

**"Qəbələ"**

# Ölkəmizdə demoqrafik vəziyyət

Əhalinin ümumi sayının 52,8 faizini şəhər, 47,2 faizini kənd sakinləri, 49,9 faizini kişilər, 50,1 faizini isə qadınlar təşkil edir. Yanvarda ölkədə 5432 ölüm halı qeydə alınıb və əhalinin hər 1000 nəfərinə ölüm səviyyəsi 6,5 təşkil edib.

Dövlət qurumları tərəfindən daimi yaşamaq üçün Azərbaycana 141 nəfər gələn, ölkədən isə 98 nəfər gedən qeydə alınıb. Ölkə üzrə miqrasiya saldosu müsbət 43 nəfər təşkil edib.

Həmçinin yanvarda 12 min 369 körpə doğulub. Əhalinin hər 1000 nəfərinə bu göstərici 14,8 təşkil edib. Körpələrin 298-i əkiz, 9-u isə üçəmdir.

Ədliyyə Nazirliyinin rayon (şəhər) qeydiyyat şöbələri tərəfindən cari ilin ilk ayında 4422 nikah və 1428 boşanma halları qeydə alınıb. Əhalinin hər 1000 nəfəri üzrə nikahların sayı 5,3, boşanmaların sayı isə 1,7-yə bərabər olub.